PRACTICAL ACTION



Dünyanın ən böyük dərsi

# Enerji və Dayanıqlı inkişaf üzrə Qlobal məqsədlər

## Fənn:

Coğrafiya

## Təlim nəticələri

- Hər yerdə  bütün insanların yüksək həyat keyfiyyəti üçün enerjinin vacibliyini anlamaq.
- BMT tərəfindən təsdiqlənmiş Qlobal məqsədlərin dünyada yoxsulluğa son qoymaq üçün qəbul olunmuş məqsədlər olduğunu öyrənmək.
- Enerji və yoxsulluğun azaldılması arasındakı əlaqəni anlamaq.
- Dünya üzrə yoxsulluğun azaldılmasında rol oynaya biləcəyimizi hiss etmək.

## Hazırlıq

- 4-5 şagirdlik qruplar üçün çoxlu sayda kağız parçaları və ya qeyd vərəqləri hazırlayın.
- Əlavə 1-də verilmiş şəkilləri çap edin və ya nümayiş etdirin.
- Əlavə 2-də verilmiş tapşırıq vərəqini böyük ölçülü vərəqdə çap edin (mümkündürsə).
- Əlavə 3-ü çap edin.

Bu dərs icmalı "Practical Action" köməyi ilə hazırlanıb  www.practicalaction.org/schools

Ümumi vaxt:

**60**
Dəq.

Yaş:

**8-11**
yaş

7 UCUZ VƏ TƏMİZ ENERJİ

“Dünyanın ən böyük dərsi” – Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin -“Dayanıqlı inkişaf naminə tərəfdaşlıq” məqsədinin mühümlüyünün canlı sübutudur və onun gercəkləşdirilməsi bizimlə və biri-biri ilə əməkdaşlıq edən tərəfdaşlarımızın köməyi olmadan mümkün olmazdı.

Layihənin təşkilatcılar qrupuna təşəkkür edirik:

Powered By:

Distributed By:

Translated By:

Dünya üzrə bizimlə işləyənlərə xüsusi təşəkkürlər:

“Qlobal düçüncə” təşkilatının əməkdaşlığı ilə hazırlanmış dərs planları (Think Global) www.think-global.org.uk.
Ədalətli və dayanıqlı sülhün təmin edilməsi məqsədi ilə təlimin təbliği.

## Təlim fəaliyyəti

5 Dəq.

Fəaliyyəti təqdim edin. Müasir dünyada elektrik enerjisinin hamı üçün vacibliyini və dünyanın ən yoxsul təbəqəsinə enerjiyə çıxış imkanı vermək üçün hansı işlərin görüldüyünü tədqiq edəcəklərini şagirdlərə izah edin. Şagirdlərin Qlobal məqsədlər haqqında nə dərəcədə məlumatlı olduqlarını müəyyənləşdirin.

## Təlim fəaliyyəti

20 Dəq.

Şagirdlərdən enerjidən istifadə etdikləri bütün halları kağızlarda və ya qeyd vərəqlərində yazmağı xahiş edin. Sonra şagirdlər 4-5 nəfərlik qruplarda işləyərək öz ideyalarını müqayisə etməli, enerji tələbatlarını müəyyən kateqoriyalara uyğunlaşdırmalıdırlar, məsələn, isitmə sistemi, yemək bişirmə, istirahət.

Videonu nümayiş etdirin (2:55)

https://www.youtube.com/watch?v=2JHs2y9x-pw&list=PLHvu7XCqeua48Q8KqNSTVGsvf0O-JB0y9

Enerjinin daha hansı hallarda lazım olduğunu vərəqlərdə yazmağı və onu öz kateqoriyalarına əlavə etməyi şagirdlərdən xahiş edin. Onlara əlavə kateqoriyalar yaratmaq lazım ola bilər.

Əlavə 1-də olan şəkilləri göstərin və onu bütün siniflə birgə müzakirə edin. Şagirdlər öyrəndikləri enerji növlərini kateqoriyalara əlavə etməli olacaqlar.

Rəyləri yığın və kateqoriyaları ümumiləşdirin.

## Təlim fəaliyyəti

30 Dəq.

“Dünyanın ən böyük dərsi” cizgi filminə baxın.

www.globalgoals.org/worldslargestlesson

Hər qrupa “Enerji Qlobal məqsədlər üçün niyə vacibdir?” (Əlavə 2) tapşırıq vərəqlərini, “Qlobal məqsədlər” plakatını (Əlavə3), yapışqan və qayçı paylayın.

Şagirdlərdən 17 Qlobal məqsəddən 8-ini seçməyi xahiş edin (qrupları fərqli məqsədlər seçməyə yönəldin). Məqsədlər haqqında qısa məlumatlardan, işarələrdən istifadə edərək Qlobal məqsədlərə nail olmağa vəsilə olan və enerji tələb edən 2 şey yazın. Əvvəlcədən öyrənilmiş enerji tələbatlarından istifadə edin.

Hər qrupun rəyini paylaşın.

## Diferensiasiya və alternativ tapşırıqlar

Əgər şagirdlərə Qlobal məqsədlər haqqında əlavə məlumat lazım olarsa, http://www.tipii.edu.az/nodupload/editor/files/Istediyimiz_dunya%201.pdf “İstədiyimiz dünya – uşaq və gənclərin qlobal məqsədlər üzrə bələdçi kitabçası”nı tapa bilərsiniz.

## Təlim fəaliyyəti

10
Dəq.

Problemin miqyasını xatırlatmaq üçün Əlavə 4-dən istifadə edin.

Şagirdlər cümləni neçə variantda tamamlaya bilərlər?
*- Enerji yoxsulluq səviyyəsini azaltmağa kömək edir, çünki...*



Peruda ana açıq sobanın üstündə yemək hazırlayır



Nepalda ailə sobadan istilik və yemək hazırlanması üçün istifadə edir



Keniyada qadın saç ustası kimi çalışır



Banqladeşdə biznesmenlərin fermerlər ilə görüşü



Zimbabvedə fermer MP3 pleyerdə podkasta qulaq asır



Peruda günəş enerjisi ilə işləyən peyk antennası



Banqladeşdə yoqurt hazırlamaq üçün istifadə edilən maşın



Nepalda uşaqlar gecələr oxumaq üçün günəş enerjisi ilə işləyən fənər istifadə edirlər



Banqladeşdə fermer internetdə informasiya axtarır



Keniyada yeni ana olmuş qadınlar tibb mərkəzində məsləhət və dərmanlar alır



Malyariyaya qarşı peyvənd edilən uşaq



Keniyada günəş enerjisi ilə işləyən su nasosundan gələn suda çimən uşaqlar

Enerji lazımdır:

Enerji lazımdır:

Enerji lazımdır:

Enerji lazımdırr:

**Qlobal məqsədlər**

Sabit inkişafın ümumdünya məqsədləri

7 UCUZ VƏ TƏMİZ ENERJİ

Enerji lazımdır:

Enerji lazımdır:

Enerji lazımdır:

Enerji lazımdır:

PRACTICAL ACTION

# Nə üçün enerji Qlobal məqsədlər üçün bu qədər vacibdir?


1 YOXSULLUĞA SON
2 ACLIĞA SON
3 SAĞLAMLIQ VƏ RİFAH
4 KEYFİYYƏTLİ TƏHSİL
5 GENDER BƏRABƏRLİYİ
6 TƏMİZ SU VƏ SANİTARİYA
7 UCUZ VƏ TƏMİZ ENERJİ
8 LAYİQLİ İŞ VƏ İQTİSADİ ARTIM
9 SƏNAYELƏŞDİRMƏ, İNNOVASİYA VƏ İNFRASTRUKTUR
10 QEYRİ BƏRABƏRLİYİN AZALDILMASI
11 DAVAMLI İNKİŞAF EDƏN ŞƏHƏRLƏR
12 DÜŞÜNÜLMÜŞ İSTEHLAK VƏ İSTEHSAL
13 İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ
14 SU ALTINDA HƏYAT
15 YER ÜZÜNDƏ HƏYAT
16 SÜLH, ƏDALƏT VƏ GÜCLÜ İNSTİTUTLAR
17 DAVAMLI İNKİŞAF NAMİNƏ TƏRƏFDAŞLIQ
QLOBAL MƏQSƏDLƏR


PRACTICAL ACTION
Problem haqqında yaddaş qeydi
Enerji kasıb insanlar üçün yoxsulluğun qarşısını almaq
və bizim Qlobal məqsədlərə nail olmağımız üçün vacibdir.
Bu günün problemi belədir: indi dünya əhalisinin üçdə birinin
müasir enerji xidmətlərinə çıxışı yoxdur.
33.3333
33%
1/3